**COP29 Azərbaycanın səyləri nəticəsində yaddaşlara tarixi bir konfrans kimi həkk olundu - ŞƏRH**

Bakıda keçirilən COP29 konfransı Azərbaycanın liderliyi ilə kifayət qədər uğurlu nəticələrə imza atdı. COP29 kimi konfranslar bir qayda olaraq qarşısına müəyyən hədəflər qoyur və iki həftə ərzində aparılan gərgin müzakirələr bu hədəflərə çatmağa yardımçı olur. Artıq verilən yekun qərara əsasən demək olar ki, COP29 müəyyən etdiyi hədəfə çatmış hesab olunur, iqlim maliyyəsi fondu üçün nəzərdə tutulan hədəf -2035-ci ilə qədər hər il 300 milyard dollar toplanması ilə bağlı razılıq əldə olunub və bu vəsaitin ayrılmasını inkişaf etməkdə olan ölkələr inkişaf etmiş ölkələr qarşısında əsas tələb kimi qoydular. Digər tərəfdən COP çərçivəsində hər bir ölkə qlobal istiləşmənin 1,5 C saxlanması, dekarbonizasiya ilə bağlı öhdəlik götürüb və bu öhdəliklərə riayət etmək üçün öz ölkələrində milli səviyyədə müəyyən tədbirlər görməli, ev tapşırıqlarını yerinə yetirməlidirlər. Şübhəsiz ki, ilk baxışdan bu, bir o qədər asan görünməyə bilər, çünki bu tədbirlər paralel aparılmalı, bərpaolunan və yaşıl enerjiyə keçid prosesində ölkələrin iqtisadiyyatlarına az zərər vurmalı, iş yerlərinin ixtisarına səbəb olmamalıdır. Aparılan müzakirələrdən demək mümkündür ki, COP29 çərçivəsində konsensusa gəlindi, iqlim maliyyəsi ilə bağlı ümumi razılıq əldə olundu.

Bunu AZƏRTAC-a açıqlamasında Azərbaycan-Amerika Gəncləri İctimai Birliyinin sədri Vüqar Əhmədov deyib.

O bildirib ki, vətəndaş cəmiyyəti, beynəlxalq təşkilatlar da bu prosesdə fəal iştirak edərək prosesə töhfə verməyə çalışdılar, ekoloji problemlər və ətraf mühit məsələləri ilə bağlı önəmli məsələləri qaldırdılar. Lakin istər iqlim maliyyəsi, istərsə də qlobal iqlim dəyişmələri ilə mübarizə istiqamətində həlledici qərarları müvafiq hökumətlər verir.

“Əminliklə demək olar ki, COP29 bu sarıdan çox faydalı və səmərəli müzakirələr, tarixi qərarlarla yadda qaldı, Paris sazişinin maddələri üzrə müvafiq razılaşmalar əldə olundu. Bu, həm də BMT-nin iqlim dəyişmələri üzrə 29-cu sessiyasının tərəflər konfransının iştirakçılarına öz milli siyasətlərini bu hədəflərə yönəltmək, bu istiqamətdə müvafiq islahatlar həyata keçirmək üçün bir təkan olacaq. COP29 çərçivəsində bir çox ölkələrin dövlət və hökumət başçıları bu istiqamətdə müvafiq tədbirlər həyata keçirəcəyi ilə bağlı bəyanatlar və açıqlamalar verdilər, ölkələrin vətəndaş cəmiyyəti təşkilatları tərəfindən də qarşıdakı dönəmdə ekoloji sahədə müvafiq proqramların icrası nəzərdə tutulur.

Dünyanın aparıcı liderləri - Amerika Prezidenti Co Bayden və digər prezidentlər COP29-un uğurla başa çatması, qarşıya qoyulan hədəflərə nail olunması münasibətilə dövlətimizin başçısına məktublar ünvanladılar. Lakin Azərbaycanın tarixi konfransa ev sahibliyi etməyə başladığı bir zamanda Qərbin siyasi dairələrindən dəstək əvəzinə qərəzli hücumların şahidi olduq, ölkəmizin belə bir uğurlu tədbirə ev sahibliyi etməsini gözü götürməyənlər Avropa media şəbəkəsində çirkin və qarayaxma kampaniyası təşkil etdilər. Bunun da başında Fransanın Makron hakimiyyəti və Avropada şəbəkələşmiş erməni lobbisi durur. Onların məqsədinə görə, COP29 konfransı uğurla baş tutmamalı və bununla onlar iqlim maliyyəsinin toplanmasında öhdəliklərdən yayınmağa bəhanə tapmış olacaqdılar. Çünki Azərbaycan COP29 çərçivəsində, eyni zamanda, Afrika qitəsində inkişaf etməkdə olan ölkələrə yardım məsələsini qoymuşdu, bu isə onları illərdir istismar edən və müstəmləkə altında saxlayan Qərb ölkələrinə sərf etmir”, - deyə V.Əhmədov vurğulayıb.

O deyib ki, qeyd olunan cəhdlərə baxmayaraq məhz Azərbaycanın sədrliyi ilə başlanan, hazırlıq mərhələsi ilə birgə bir ilə yaxın aparılan proses uğurla nəticələndi, COP29 qlobal müvəffəqiyyətə imza atdı. Bütün bunlar isə onu göstərir ki, COP29 məhz Azərbaycanın səyləri nəticəsində yaddaşlara tarixi bir konfrans kimi həkk olundu, bundan həm ev sahibliyi edən ölkə, həm də beynəlxalq tərəfdaşlar faydalana bildi.

**AZƏRTAC**
**2024, 26 noyabr**